DOI:10.30546/gdu.2023.316-319

**UOT:355.**

# AZƏRBAYCAN RESPUBLİKASININ SİLAHLI QÜVVƏLƏRİ

***Babayeva Nurlana Bəhlul, Ələkbərova Zülfiyyə Bəxtiyar***
***Gəncə Dövlət Universiteti***
***Nurlanababayeva79@gmail.com***

**Xülasə:** *Elmi məqalədə Azərbaycan Respublikası silahlı qüvvələrinin yaranması və inkişafı tarixi haqqında məlumat verilir. Milli hərbi kadrların yetişdirilməsi ənənələri haqqında elmi dəlillər diqqətə çatdırılır. Həmçinin müəllif tərəfindən silahlı qüvvələrimizin texniki imkanları, döyüş hazırlığı məsələlərindən bəhs edilir. Məqalədə 44 günlük Vətən müharibəsində zəfər əldə etmiş ordumuzun qüdrəti çoxsaylı sübutlar, elmi faktlar əsasında araşdırılmışdır.*

**Açar sözlər:** silahlı qüvvələr, milli hərbi mütəxəssislər, kadr hazırlığı, döyüş texnikaları.

**Ключевые слова:** вооруженные силы, отечественные военные специалисты, подготовка личного состава, боевая техника.

**Key words:** armed forces, domestic military specialists, training of personnel, military equipment.

***"Ordu ölkəmizin, milliyətimizin,***
***dövlətimizin, müstəqilliyimizin dayağıdır"***
***Heydər Əliyev***

Azərbaycan xalqı dünyanın ən qədim xalqlarından biridir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Azərbaycan Respublikasının suverenliyinin ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa onun qarşısının alınmasına xidmət edir.

1918-ci il may ayının 28-də müstəqil Azərbaycan hökuməti yaradıldı. Eyni zamanda milli ordu quruculuğu işlərinə başlanıldı. Həmin ildə iyun ayının 26-sı Azərbaycan Demokratik Respublikası Silahlı Qüvvələrinin yaranma günü kimi ölkəmizin tarixinə yazıldı. Dekabr ayının 25-də artilleriya generalı S. Mehmandarov, dekabrın 29-da isə general-leytenan Ə.Şıxlinski nazir müavini seçildilər. Onlar qısa müddətdə ordu quruculuğunda böyük işlər görüblər.

1918-ci ilin iyun ayında Gəncədə hərbi məktəb yaradıldı. 1919-cu ili noyabr ayında isə bu hərbi məktəb hərbi uçilişiyə çevrildi. Hərbi Nazirliyin bərpasının ilk günlərindən hərbi qulluqçuların geyimlərində də dəyişikliklər başladı. Hərbi geyimin Azərbaycan Ordusuna uyğunlaşdırılması üçün xüsusi komissiya yaradıldı.Hərbi Nazirin əmri ilə 1919-cu ilin yanvarın 1-də Hərbi geyimin dəyişilməsinə rəsmi şəkildə qərar verildi. Ancaq bu əmrə qədər Hərbi Nazir fəaliyyətə başlayarkən əmr etmişdir ki baş geyiminə dəyişiklik edilsin. Nazirin əmrinə əsasən baş geyim forması olan Furajkalar Papaqla əvəz olunsun. Və bu dəyişiklik üçün Nazir 1 ay vaxt ayırmışdır.

Nazirin əmri ilə geyimdə dəyişiklər oludu. Yeni Hərbi geyim formasının elementləri paqonlar idi. Həm hərbi qulluqçuların həm də orduda xidmət edən məmurların geyimlərində paqonlar var idi. Paqonların üzərinə ərəb əlifbası ilə "Azərbaycan" sözü yazılmışdı.

Artıq 1919-cu ilin sonunda milli ordunun tərkibində 2 piyada diviziyası, 1 kavaleriya diviziyası mövcud idi. 1919-cu ilin sonu 1920-ci ilin əvvəlində kovalyer, topçuluq və snayper uçilişləri yaradıldı. İngilislər köçüb getdikdən sonra isə hərbi nazirlik hərbi liman yaratdı. Xəzər hərbi donanma yenidən quruldu. "Qars" və "Ərdahan" adlı gəmilər, "Astrabad", "Araz" və "Nargin" adlı lodkalar hərbi donanmanın sərəncamına verildi.

DOI:10.30546/gdu.2023.316-319

1920-ci il aprel ayının 28-də Bakı şəhəri Bolşeviklər tərəfindən işğal edildi. Ordumuz bolşeviklər tərəfindən dağıdıldı.Azərbaycan Xalq Cumhuriyyətinin süqutundan sonra 1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti quruldu. Azərbaycanda hakimiyyəti Azərbaycan SSR İnqilab komitəsinə və Azərbaycan SSR Xalq Komissarları Sovetinə keçdi. 1922-ci ildən 1936-cı ilə qədər Azərbaycan SSR, Ermənistan və Gürcüstan SSR-lə birlikdə ZSFSR tərkibinə daxil olmuşdu. 1936-cı ildə isə ZSFSR ləğv edildi və Azərbaycan SSR ayrıca respublika kimi SSRS-nin tərkibinə daxil oldu. 1991-ci ilin fevral ayının 5-də Azərbaycan SSR Azərbaycan Respublikası adlandırıldı. Azərbaycan Respublikasının dövlət müstaqilliyini bərpa etmək haqqında 1991-ci il 30 avqustda Bəyənnamə qəbul olundu.

1991-ci il oktyabrın 9-da "Azərbaycan Silahlı Qüvvələr haqqında" qanun qəbul edildi.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyev yenidən hakimiyyətə gəldi. Ulu Öndərin qayıdışından sonra Azərbaycan Silahlı Qüvvələrinin tarixində yeni mərhələ başladı. Ulu Öndər Heydər Əliyevin odu quruculuğunda zəhməti çox oldu. Yeni hərbi məktəblər yaradıldı, yeni peşəkar zabit kadrlar işə cəlb edildi, və s. Ordumuz günü-gündən gücləndi. Azərbaycan dünyanın sayılıb . seçilən ölkələrindən birinə çevrildi.

1998- ci ilin may ayındaUlu Öndər Heydər Əliyev sərəncam imzaladı. Sərəncamda 26-iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr günü elan edildi. Hər il 26 iyun təntənəli mərasimlə qeyd edilir.

29 iyun 2000-ci ildə Silahlı Qüvvələr gününə həsr edilmiş təntənəli mərasimdə Ulu Öndər Heydər Əliyev çıxışı zamanı söyləmişdi; "Azərbaycan Silahlı Qüvvələrinin ordusu ağır bir proses keçibdir. Ordunun təşkil olunmasına çoxmaneyələr təsirlər göstərilibdir. Ancaq biz artıq bunların qarşısını almışıq. İndi Azərbaycan Ordusunun müasir dövrə uyğun uğurlu müdafiəni təmin etmək, yaxutda müharibə aparmaq üçün düzgün strukturu yaranıbdır. 1993-cü ilin noyabrından və 1995-ci ildən sonrakı dövr Azərbaycan Ordusunun güclənməsi, möhkəmləndirilməsi dövrüdür"

26 iyun 2001- ci il Azərbaycan Silahlı Qüvvələrinin 83-cü il dönümünə həsr olunmuş təntənəli mərasimdə Heydər Əliyev çıxışı zamanı söyləmişdir; " Heç bir müstəqil dövlət, ölkə ordusuz yaşaya bilməz. Ordu hər bir ölkənin ərazi bütövlüyünün, suverenliyinin və müstəqilliyinin təminatçısıdır".

2003 –cü ildə Ulu Öndərin vəfatından sonra hakimiyyətə İlham Əliyev gəlmişdir.

2018-ci il uyun ayının 26-da Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyinə həsr olunmuş hərbi parat keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci ili "Azərbaycan Xalq Cumhuriyyəti" ili elan etmişdi.

2020-ci il sentyabrın 27-də "Dəmir Yumruq" əməliyyatı nəticəsində Ordumuz 30 illik həsrətə son qoydu. İşğalda olan torpaqlarımız geri qaytarıldı. Qələbəmiz böyük Zəfər Paradı ilə qeyd edildi.

Bildiyimiz kimi Azərbaycan Respublikasının prezidenti İlham Əliyev 2023-cü il Ulu Öndər Heydər Əliyev ili elan etdi.

Beləliklə Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü-gündən yeni addımlar ataraq irəliləmişdir.

Hal-hazırda Azərbaycan Silahlı Qüvvələrinin tərkibində3 qoşun növü var:

1.Quru qoşunlar

2. Hərbi hava qüvvələri

3. Hərbi dəniz qüvvələri

Azərbaycan Silahlı Qüvvələrinin qoşun növləri hər biri ayrılıqda öz vəzifələrini yerinə yetirir.

Quru qoşunlar döyüş heyyətinə görə Azərbaycan Ordusnun ən çox saylı qoşun növüdür. Quru qoşunlar öz növbəsində də 2 növə bölunurlər:

DOI:10.30546/gdu.2023.316-319

-Motoatıcı qoşunlar;

-Atrilleriya

Hava hücumundan müdafiəqoşunlarının vəzifəsi düşmənin hava hücümunu dəf etmək, inzibati-siyasi vəiqtisadi mərkəzləri eləcə də digər vacib obyektləri havadan müdafiə etməkdir.

Hərbi Dəniz Qüvvələrinin vəzifəsi düşmənin mühüm yerüstü obyektlərini, bazalarını və dənizdə yerləşən qüvvələrini, dəniz kommunikasiyalarını məhv etməkdən ibarətdir.

Ordumuzun qoşun növlərinin hərbiri müvəfəqiyyətlə öz vəzifəsini yerinə yetirir.

Silahlı Qüvvələrimizin eyni zamanda 4 ədəd Nizamnaməsi vardır. Nizamnamələrin tələbləri bütün hərbi qulluqçulara aid edilir. Ümumilikdə Nizamnamələrimiz “ Ümumqoşun Nizamnaməsi” adlanır, ayrılıqda isə hər birirnin özünə məxsus adı mövcutdur:

1. Sıra nizamnaməsi;
2. İntizam nizamnaməsi;
3. Qarnizon və qarovul nizamnaməsi:
4. Daxili xidmət nizamnaməsi.

Hər bir nizamnamənin özünə məxsus tələbləri vardır.

Sıra nizamnaməsi Müdafiə Nazirliyinin 24 dekabr 2014-cü il tarixli , 73 N-li Qərarı ilə qüvəyə minmişdir. Bu nizamnamə hərbi qulluqçuların silahsız və silahla sıra hərəkətləri və yerişini, bölmə və hissələrin piyada və nəqliyyat vasitələrində sıralarını, əsgəri salamlaşma qaydasını, sıra baxışının keçirilməsini, hərbi hissənin Döyüş bayraöının sırada vəziyyətini, onun çıxarılmasını və qaytarılmasını, hərbi qulluqçuların düzülüşündən qabaq və sırada vəzifə borclarını, sıra hazırlıöına olan tələbləri, habelə yerdəyişmə qaydalarını müəyyənləşdirir. Adınnanda bəlli olduğu kimi qısaca desək sırada qayda qanunu tələb edir.

İntizam nizamnaməsi Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 885 saylı Qanunu ilə təsdiq edilmişdir. Adınnanda bəlli olduğu kimi intizam qaydalarını tələb edir. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi intizam hərbi qulluqçuların yüksək şüurluğuna və vətənpərvərlik borclarını dərindən dərk etmələrinə, xalqımızın beynəlmiləlçilik ənənələrinə sadiq olmalarına və Vətənəsonsuz məhəbbət bəsləmələrinə əsaslanır.

Qarnizon və qarovul xidməti nizamnaməsi Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli , 886 saylı Qərarı ilə təsdiq edilmişdir. Bu nizamnamədə qarnizon və qarovul xidmətlərinin təşkili və həyata keçirilməsi qaydaları izah edilir. Həmçinin qarnizonun vəzifəli şəxslərinin, bu xidmətləri yerinə yetirən hərbi qulluqçuların hüquqları və vəzifələri müəyyən olunur.

Daxili xidmət nizamnaməsi Azərbaycan Respublikasının 23 sentyabr 1994-cü il tarixli, 887 saylı Qərarı ilə təsdiq edilmişdir. Bu nizamnamə Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi qulluqçularının ümumi vəzifələri, onların arasındakı qarşılıqlı münasibətləri, alaya və onun bölmələrinə daxili qayda-qanunlar və həmçinin əsas vəzifəli şəxslərin xidmət vəzifələrini müəyyənləşdirir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin özünə məxsus Döyüş Bayrağı vardır. Döyüş Bayrağı hər bir əsgər üçün hərbi şərəf, şücaət və şöhrət simvoludur. Döyüş Bayrağı haqqında Əsasnamə dövlət ali qanunvericilik orqanı Milli Məclistərəfindən təsdiq olunur. Döyüş Bayrağı diviziyada briqadalara, alaylara, ayrı-ayrı taborlara, hərbi təhsil müəsisələrinə, təlim hissələrinə və donanma heyyətinə verilir. Ordumuzun 4 ədəd Döyüş Bayrağı var:

1. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Döyüş Bayrağı;
2.Azərbaycan Respublikasının Silahlı Qüvvələri Ali Baş Komandanın Bayrağı;
3. Azərbaycan Respublikasının Hərbi Dəniz Qüvvələrinin Bayrağı;
4. Azərbaycan Respublikasının Hərbi Hava Qüvvələrinin Bayrağı.

DOI:10.30546/gdu.2023.316-319

Döyüş bayraqlarının hər birinin özünə məxsus adları olduğu kimi onlar öz ölçüsü, rəngi, işarəsi, yazısı ilədə fərqlənir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin tərkibində xidmət edən bütün hərbiçilərin hərbi və xüsusi hazırlığına, qulluq illərinə, qoşun növlərində qulluğuna və eləcə də Vətən qarşısındaki xidmətlərinə görə onlara hərbi rütbələr və geyimlər verilir. Hər bir rütbənin özünə məxsus nişanı vardır. Hərbi geyimlər öz növbəsində yay və qış geyimlərinə bölünürlər. Hərbi geyimlər formalarına görə mərasim, gendəlik, səhravə xüsusi geyimlərə ayrılırlar. Hərbiçilərimizin hərbi geyim formalarını və fərqlənmə nişanlarını Azərbaycan Respublikası Milli Məclisin təsdiq edir, onların geyinilməsi və sancılması qaydasını isə Azərbaycan Respublikasının Prezidenti təsdiq edir.

Bir sözlə güvənc yerimiz, qürur yerimiz olan Milli Ordumuz sürətlə inkişaf edir. Ordumuzun vətənpərvər oğulları öz mərdliyini, vətənpərvərliyini, Vətənə olan sevgisini və gücünü “ Vətən Müharibəsin”- də sübut etdi. 30 il sürən torpaq həsrətinə Ordumuz sayəsində son qoyuldu. Allah Şəhidlərimizə Rəhmət etsin. Baş Komandanımız İlham Əliyevin dediyi kimi: “Qarşı tərəfdə- düşmən də bilir və bilməlidir ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və bu istiqamətdə də əlavə addımlar atılacaqdır”.

***Ədəbiyyat***


1. X.Vəliyev “ Heydər Əliyev Və Ordu Quruculuğu” Bakı 2006.
2. H.Ocaqov, R.Qasımov “Gənclərin Çağırışaqədərki Hazırlıqı2 Bakı 2011.
3. Xalq qazeti 2020-ci il 26 iyun.
4. Azərbaycan Respublikası Müdafiə Nazirliyi Bakı 2015.
5. Azərbaycan Respublikası Qanun vericilik Toplusu2004-cü il N 6 maddə 415.
6. Xalq qazeti 2018-ci il 26 iyun.
7. Azərbaycan Respublikası Silahlıq Qüvvələri Daxili Xidmət Nazirıiyi Bakı 2007-ci il.
8. Azərbaycan Respublikası Silahlı Qüvvələri Sıra Nizamnaməsi Bakı 2015.


## ВООРУЖЕННЫЕ СИЛЫ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

***Бабаева Нурлана Бахлул кызы, Алекберова Зульфия Бахтияр кызы***

***Резюме***

В научной статье представлена информация об истории создания и развития вооруженных сил Азербайджанской Республики. Приводятся научные данные о традициях подготовки национальных военнослужащих. Также автор рассказывает о технических возможностях наших вооруженных сил и вопросах боевой подготовки. В статье на основе многочисленных свидетельств и научных фактов рассмотрена мощь нашей армии, одержавшей победу в 44-дневной Отечественной войне.

## ARMED FORCES OF THE REPUBLIC OF AZERBAIJAN

***Babayeva Nurlana Бахлул кызы, Alekberova Zulfiyye Бахтияр кызы***

***Summary***

Scientific article provides information about the history of the creation and development of the armed forces of the Republic of Azerbaijan. Scientific data on the traditions of training national servicemen are given. The author also talks about the technical capabilities of our armed forces and issues of combat training. Based on numerous testimonies and scientific facts, the article examines the power of our army, which won the 44-day Patriotic War.

***Rəyçi: Dos Hüseynzadə Zaur***

***Fiziki tərbiyəvə, çağırışaqədərki hazırlıq və mülki müdafiə kafafedrasının 11 aprel 2023-cü il tarixli iclasın 10 saylı protokolu***

***Daxil olma tarixi 14 aprel 2023-cü il***